# PAULUN SALONİKLİLƏRƏ BİRİNCİ MƏKTUBU

## GİRİŞ

Salonik Roma imperatorluğunun Makedoniya vilayətinin paytaxtı idi. Paul Filipini tərk edəndən sonra burada imanlı cəmiyyəti yaratdı. Amma Yəhudilər tezliklə Paulun Yəhudi olmayan xalqların arasında Müjdəni uğurla vəz etdiyini eşidib qısqandılar. Paul Saloniki tərk edib Veriyaya getməyə məcbur oldu. O, Korinfə çatanda öz həmkarı və əməkdaşı olan Timoteydən Salonik cəmiyyətindəki vəziyyət haqqında məktub aldı.

Paulun Saloniklilərə birinci məktubu oradakı məsihçiləri ruhlandırmaq üçün yazılıb. Paul bu məsihçilərin iman və məhəbbəti haqqında yeniliklər eşidib onlara minnətdarlığını bildirir, sonra onların arasında yaşayarkən sürdüyü həyat tərzini yadlarına salır. Paul cəmiyyətdə müzakirə olunan bu suallara cavab verir: Məsihin təkrar gəlişindən əvvəl dünyasını dəyişən imanlıların aqibəti necə olacaq? Məsih nə vaxt zühur edəcək? Paul onlara Məsihin gəlişinə qədər dinc yaşamağı, öz işləri ilə məşğul olmağı və hörmətəlayiq şəkildə həyat sürməyi məsləhət görür (4:11-12).

**Kitabın məzmunu:**

1:1-10 Saloniklilərin imanı
2:1-16 Paulun Salonikdəki xidməti
2:17–3:13 Salonikdən gələn xəbər
4:1-12 Məsihçi davranışına aid tövsiyələr

4:13–5:11 Məsihin zühuruna aid təlimat
5:12-28 Son öyüdlər və salamlar

1 *Paul, Sila və Timoteydən Ata Allah və Rəbb
İsa Məsihdə olan Saloniklilər cəmiyyətinə salam!
Sizə* lütf və sülh olsun!

### *Nümunəvi iman*

2 Dualarımızda sizi yada salıb həmişə hər birinizə
görə Allaha şükür edirik. 3 Çünki imandan yaranan
əməllərinizi, məhəbbətdən doğan zəhmətinizi və
Rəbbimiz İsa Məsihə bağladığınız ümidin verdiyi
dözümü Atamız Allah qarşısında daim yada salırıq.
4 Ey Allahın sevimlisi olan qardaşlar, bilirik ki,
O sizi seçib. 5 Ona görə ki yaydığımız Müjdə
yalnız sözlə deyil, qüvvə ilə, Müqəddəs Ruhla və çox
inandırıcılıqla sizə çatıb. Aranızda ikən sizin üçün
necə bir adam olduğumuzu bildiniz. 6 *Siz də böyük
əziyyət içində Müqəddəs Ruhun verdiyi sevinclə
kəlamı qəbul edib bizdən və Rəbdən nümunə
götürdünüz. 7 Beləliklə, siz Makedoniya və Ax-
ayyadakı bütün imanlılar üçün nümunə oldunuz.
8 Çünki Rəbbin kəlamının sədası sizdən yayıldı.
Allaha imanınızın sorağı yalnız Makedoniya və
Axayyaya deyil, hər yerə çatıb. Daha bizə söz
deməyə ehtiyac qalmadı. 9-10 Çünki özləri xəbər
yaydılar ki, bizi nə qədər yaxşı qarşıladınız və var
olan həqiqi Allaha qulluq etmək üçün, həmçinin
Onun ölülər arasından diriltdiyi Oğlunun, yəni
bizi gələcək qəzəbdən qurtaran İsanın göylərdən

---

* **1:1** Həv. 17:1 * **1:1** Sizə – bəzi əlyazmalarda Atamız Allah və Rəbb İsa Məsihdən sizə. * **1:6** Həv. 17:5-9

zühurunu gözləmək üçün bütlərdən Allaha təraf necə döndünüz.

# 2

*Paulun Salonikdəki xidməti*

1 Qardaşlar, özünüz də bilirsiniz ki, yanınıza
gəlməyimiz əbəs olmadı. 2 *Bildiyiniz kimi,
əvvəlcə Filipidə əziyyət çəkmiş, təhqir olunmuşduq.
Amma böyük ziddiyyətlərə baxmayaraq, Allahın
Müjdəsini sizə bəyan etmək üçün Allahımızdan
cəsarət aldıq. 3 Çünki bizim çağırışımız aldatmağa,
murdarlığa əsaslanmır və bunun hiyləgərliyə də
dəxli yoxdur. 4 Əksinə, Allah tərəfindən Müjdəni
yaymaq tapşırığını almağa layiq görüldüyümüzə
görə insanları deyil, ürəklərimizi sınaqdan
keçirən Allahı razı salmaqdan ötrü danışırıq.
5 Siz bilirsiniz ki, heç vaxt yanınıza yaltaq
sözlərlə yaxud tamahkarlığı gizlədən riyakarlıqla
gəlmədik. Allah da buna şahiddir. 6 İzzəti heç bir
insanda – nə sizdə, nə də başqalarında axtardıq.
7 Məsihin həvariləri kimi bunu sizdən tələb edə
bilərdik, amma biz sizinlə övladlarını isti qucağına
alıb yedirdən ana kimi mülayim rəftar etdik.
8 Sizlərə elə könül bağlamışdıq ki, yalnız Allahın
Müjdəsini deyil, öz canlarımızı belə, sizə verməyə
razı idik. Çünki bizim sevimlilərimiz idiniz.

9 Bəli, qardaşlar, bizim əmək və zəhmətimizi
xatırlayırsınız: heç birinizə yük olmamaq üçün
gecə-gündüz çalışaraq sizə Allahın Müjdəsini vəz
etdik. 10 Siz imanlılarla necə müqəddəs, saleh və

* **2:2** Həv. 16:19-24; 17:1-9

nöqsansız davrandığımıza həm özünüz, həm də Al-
lah şahiddir. 11 Bildiyiniz kimi, ata övladları ilə necə
rəftar edirsə, biz də hər birinizlə elə rəftar etdik.
12 Sizə öyüd verdik, ruhlandırdıq və yalvardıq ki, Öz
Padşahlığına və izzətinə çağıran Allaha layiq şəkildə
həyat sürəsiniz.
13 Biz də dayanmadan Allaha şükür edirik ki,
siz bizdən eşitdiyiniz Allah kəlamını qəbul edəndə
onu bəşəri söz kimi deyil, həqiqətən, Allahın
kəlamı olaraq qəbul etdiniz. Siz imanlılarda
fəaliyyət göstərən də bu kəlamdır. 14 *Çünki qar-
daşlar, siz Allahın Yəhudeyadakı Məsih İsada olan
cəmiyyətlərindən nümunə götürdünüz. Onların
Yəhudilərdən* çəkdiyi əzabları eynilə siz də öz
soydaşlarınızdan çəkdiniz. 15 Yəhudilər Rəbb İsanı
və peyğəmbərləri öldürdülər, bizi də təqib etdilər.
Onlar Allahı narazı salır və bütün insanlara qarşı
çıxırlar. 16 Çünki başqa millətlər xilas olsunlar
deyə biz onlarla danışanda bu Yəhudilər bizə mane
olur. Beləcə hər zaman günahlarının üzərinə günah
gətirirlər. Axırda Allahın qəzəbinə düçar oldular.

### *Gecikən səyahət*

17 Bizsə, qardaşlar, qısa bir müddət üçün qəlbən
deyil, şəxsən sizdən məhrum olduq, ona görə
böyük arzu ilə üzünüzü görməyə daha çox səy
göstərdik. 18 Biz yanınıza gəlməyi arzu etdik,
dəfələrlə mən Paul bunu istədim, amma Şeytan bizə
mane oldu. 19 Rəbbimiz İsa zühur edəndə ümidimiz,

---

* **2:14** Həv. 9:23,29; 13:45,50; 14:2,5,19; 17:5,13; 18:12 * **2:14** Yəhudilər – burada bütün yəhudi xalqından deyil, yalnız İsa Məsihi rədd edən yəhudilərdən söz gedir.

sevincimiz yaxud Onun önündə fəxr tacımız nədir?
Siz deyilsinizmi? 20 Çünki siz bizim izzətimiz və
sevincimizsiniz.

# 3

1 *Buna görə də artıq dözməyib Afinada tək
qalmağa razı olduq 2 və qardaşımız, Məsihin
Müjdəsini yaymaqda Allahın əməkdaşı* olan
Timoteyi sizi imanda möhkəmləndirmək və
ruhlandırmaq üçün göndərdik. 3 Belə ki qoy
bu əziyyətlərdən heç kim sarsılmasın. Özünüz
bilirsiniz ki, biz bunun üçün təyin olunmuşuq.
4 Çünki yanınızda olarkən əziyyət çəkəcəyimizi sizə
əvvəlcədən demişdik və bildiyiniz kimi, belə də
oldu. 5 Buna görə mən artıq dözməyib Timoteyi
yanınıza göndərdim ki, imanınızdan xəbərdar
olum. Qorxdum ki, sınağaçəkən† bəlkə sınaqları
ilə sizi yoldan çıxarmış olar və əməyimiz hədər
gedər.

### *Salonikdən şad xəbərlər gəlir*

6 *Amma yanınızdan indicə qayıdan Timotey
imanınız və məhəbbətiniz haqqında bizə şad xəbər
gətirdi. O dedi ki, siz bizi daim xoş təəssüratla yada
salırsınız və biz həsrətinizi çəkdiyimiz kimi siz də
həsrətimizi çəkirsiniz. 7 Ona görə də, qardaşlar,
bütün sıxıntı və əziyyətimizə baxmayaraq,
imanınıza görə sizdən təsəlli aldıq. 8 Çünki sizin
Rəbdə qalmağınız indi bizə həyat verir. 9 Allahımız
qarşısında sizə görə tam sevincimiz var. Belə

* **3:1** Həv. 17:15 * **3:2** Allahın əməkdaşı – bəzi əlyazmalarda Allahın qulu və bizim əməkdaşımız. † **3:5** Sınağaçəkən – yəni Şeytan. * **3:6** Həv. 18:5

olmasaydı, sizə görə Allaha necə şükür edə
bilərdik? 10 Sizin üzünüzü görmək və imanınızda
çatışmayanları tamamlamaq üçün gecə-gündüz
səylə dua edirik.

11 Qoy Atamız Allah Özü və Rəbbimiz İsa bizim
üçün sizin tərəflərə yol açsın. 12 Rəbb bir-birinizə
və bütün insanlara olan məhəbbətinizi sizə olan
məhəbbətimiz tək artırıb-çoxaltsın. 13 Belə ki
Rəbbimiz İsa bütün müqəddəsləri ilə birgə zühur
edəcəyi vaxt Atamız Allahın önündə müqəddəslikdə
nöqsansız olmağınız üçün ürəklərinizə qüvvə
versin. Amin.

# 4

### *Allahı razı salmaq*

1 Qardaşlar, necə həyat sürmək və Allahı razı
salmaq barədə bizdən təlimat aldınız. Nəhayət,
Rəbb İsa naminə sizdən xahiş edir və yalvarırıq ki,
belə həyat sürməkdə daha çox inkişaf edin. 2 Rəbb
İsanın səlahiyyəti ilə sizə hansı əmrləri verdiyimizi
bilirsiniz.

3 Çünki Allahın iradəsinə görə müqəddəslik yol-
unuz belədir: cinsi əxlaqsızlıqdan qaçın, 4-5 hər
biriniz Allahı tanımayan bütpərəstlər kimi şəhvət
və ehtirasla deyil, müqəddəslik və hörmətlə arvad
almağı öyrənin, 6 heç kim haqsızlıq edib bacı-
qardaşını istismar etməsin. Çünki əvvəlcə sizə
dediyimiz və xəbərdarlıq etdiyimiz kimi, Rəbb
bütün bunlara görə qisas alacaq. 7 Çünki Allah bizi
murdarlığa deyil, müqəddəsliyə çağırmışdır. 8 Ona
görə bu təlimatı rədd edən kəs insanı deyil, sizə Öz
Müqəddəs Ruhunu bəxş edən Allahı rədd edir.

9 Qardaşlıq sevgisinə gəlincə, sizə yazmağa
ehtiyac yoxdur, çünki Allah bir-birinizi sevməyi
öyrədib. 10 Əslində, siz bütün Makedoniyadakı
bacı-qardaşların hamısı ilə belə davranırsınız.
Lakin ey qardaşlar, rica edirik ki, belə işlərin
sayını artırın. 11 Sizə əmr etdiyimiz kimi çalışın
ki, dinc yaşayasınız, öz işinizlə məşğul olasınız və
əliniz işdə-gücdə olsun; 12 belə ki kənar şəxslərin
qarşısında hörmətəlayiq şəkildə həyat sürəsiniz və
heç kimdən təminat almağa ehtiyac duymayasınız.

*Rəbbin zühuru*

13 Qardaşlar, vəfat edənlər haqqında bixəbər
qalmağınızı istəmirik ki, ümidsiz olan digər
adamlar kimi kədərlənməyəsiniz. 14 Axı İsanın
ölüb-dirilməsinə inanırıqsa, demək İsaya bağlanaraq
vəfat edənləri də Allah Onunla birgə qaytaracaq.
15 *Çünki Rəbbin kəlamına əsaslanaraq sizə deyirik
ki, Rəbbin zühurunadək sağ qalan bizlər vəfat
edənlərdən əsla qabağa keçməyəcəyik. 16 Rəbb
Özü əmrini səsləndirməklə, baş mələyin sədası və
Allahın şeypuru ilə göydən enəcək. Əvvəlcə Məsihdə
olaraq ölənlər diriləcək. 17 Ondan sonra sağ qalan
bizlər Rəbbi havada qarşılamaq üçün onlarla birgə
buludlar içində götürülüb-aparılacaq və beləcə daim
Rəblə olacağıq. 18 Buna görə bir-birinizə bu sözlərlə
təsəlli verin.

# 5

1 Qardaşlar, zaman və məqamlar barədə sizə yaz-
mağa ehtiyac yoxdur. 2 *Çünki özünüz də çox yaxşı

* **4:15** 1Kor. 15:51-52 * **5:2** Mat. 24:43; Luka 12:39; 2Pet. 3:10; Vəhy 16:15

bilirsiniz ki, Rəbbin günü oğru gecə gəldiyi kimi
gələcək. 3 İnsanlar «sülh və təhlükəsizlik» deyəndə
hamilə qadının ağrıları necə qəfildən tutursa, on-
lar da elə qəfil məhvə düçar olacaq və bundan
əsla qaça bilməyəcəklər. 4 Amma, qardaşlar, siz
qaranlıqda deyilsiniz ki, o gün sizi oğru kimi yax-
alasın. 5 Axı hamınız nur və gündüz övladlarısınız.
Biz nə gecənin, nə də qaranlığın övladlarıyıq. 6 Ona
görə gəlin başqaları kimi yatmayaq, əksinə, oyanıb
ayıq-sayıq dayanaq. 7 Çünki yatanlar gecə yatır,
əyyaşlar da gecə vaxtı əyyaşlıq edir. 8 *Gündüzə aid
olan bizlərsə iman və məhəbbətlə döşümüzə zireh
taxaraq xilas ümidini dəbilqə kimi başımıza qoyub
ayıq-sayıq olaq. 9 Çünki Allah bizi qəzəbə düçar
olmaq üçün deyil, Rəbbimiz İsa Məsih vasitəsilə
xilasa nail olmaq üçün təyin edib. 10 Məsih bizim
uğrumuzda öldü ki, oyaq olsaq da, yatmış olsaq da,
Onunla birlikdə yaşayaq. 11 Buna görə indiki kimi
bir-birinizi ürəkləndirin və ruhən inkişaf etdirin.

### *Son öyüdlər və salamlar*

12 Ey qardaşlar, xahiş edirik ki, aranızda zəhmət
çəkənlərin, Rəbdə sizə başçılıq edib nəsihət
verənlərin qədrini bilin. 13 Etdikləri əmələ görə
onlara hədsiz məhəbbətlə hörmət göstərin. Bir-
birinizlə sülh içində yaşayın. 14 Qardaşlar, sizə
yalvarırıq, avaralara nəsihət verin, cəsarətsizləri
ruhlandırın, zəiflərə yardım edin, hamıya qarşı
səbirli olun. 15 Diqqətli olun ki, heç kim pisliyə
pisliklə cavab verməsin, əksinə, bir-birinizə və
bütün insanlara həmişə yaxşılıq etməyə çalışın.

* **5:8** Yeş. 59:17; Ef. 6:13-17

16 Daima sevinin, 17 durmadan dua edin, 18 hər
vəziyyətdə şükür edin. Çünki bunlar Məsih İsada
olan sizlər üçün Allahın iradəsidir. 19 Ruhu
söndürməyin. 20 Peyğəmbərlik sözlərinə xor bax-
mayın. 21 Hər şeyi sınaqdan keçirin və yaxşı olandan
möhkəm tutun. 22 Hər cür şərdən uzaq durun.

23 Qoy sülh qaynağı olan Allahın Özü sizi
tamamilə təqdis etsin və Rəbbimiz İsa Məsihin
zühurunda ruhunuz, canınız və bədəniniz nöqsansız
olaraq qorunsun. 24 Sizi çağıran Allah sadiqdir və
bunu edəcək.

25 Qardaşlar, bizim üçün dua edin. 26 Bütün bacı-
qardaşları müqəddəs öpüşlə salamlayın. 27 Rəbb
naminə sizə and verirəm ki, bu məktubu bütün
bacı-qardaşlara* oxuyun.

28 Rəbbimiz İsa Məsihin lütfü sizə yar olsun!

* **5:27** Bacı-qardaşlara – bəzi əlyazmalarda müqəddəslərə.

# Azərbaycan dilində Müqəddəs Kitab
## The Holy Bible in the Azerbaijani language, also known as the Azeri language, of Azerbaijan, Iran, Iraq, Syria, and Turkey

Copyright © 2008 Müqəddəs Kitab Sirkəti

Language: Azeri (Azerbaijani, South)

Translation by: Institute for Bible Translation

Contributor: Bible Society of Azerbaijan

This translation text is made available to you under the terms of the Creative Commons License: Attribution-Noncommercial-No Derivative Works. (http://creativecommons.org/licenses/by-nc-nd/3.0/) In addition, you have permission to port the text to different file formats, as long as you do not change any of the text or punctuation of the Bible.
You may share, copy, distribute, transmit, and extract portions or quotations from this work, provided that you include the above copyright information:

You must give Attribution to the work.

You do not sell this work for a profit.

You do not make any derivative works that change any of the actual words or punctuation of the Scriptures.

Permissions beyond the scope of this license may be available if you contact us with your request.
This translation is made available to you under the terms of the Creative Commons Attribution-Noncommercial-No Derivatives license 4.0.
You may share and redistribute this Bible translation or extracts from it in any format, provided that:

You include the above copyright and source information.

You do not sell this work for a profit.

You do not change any of the words or punctuation of the Scriptures.

Pictures included with Scriptures and other documents on this site are licensed just for use with those Scriptures and documents. For other uses, please contact the respective copyright owners.

2018-11-09

PDF generated using Haiola and XeLaTeX on 21 Feb 2024 from source files dated 31 Aug 2023
5d1dd449-0589-5c75-ab0e-6b96786f2985